Durum 10 dekabr 2020-ci il (cümə axşamı) ŞƏRQ

# Şəhid Xudayarın təbəssümü...



## Heykəltəraş xanımı da təsirləndirib

**Şəhid Xudayar Yusifzadənin büstü hazırlanıb. Onu Rəssamlıq Akademiyasının 2-ci kurs magistr tələbəsi Jalə Əliyeva hazırlayıb.**

*Hamı kimi Jalə xanım da şəhidimizdən çox təsirlənib. Heykəltəraş "Şərq"in digər suallarına da cavab verib.*

**- Heykəltəraşlıq bacarığına necə yiyələndiniz?**

- İşimi və işləməyi sevirəm, bu sənət mənim həyatımdır. 8 ildir ki, bu sənətdəyəm. Ömrümün sonuna kimi də yaratmaqla məşğul olacağam.

**- Necə oldu ki, qəhrəman şəhidimizin büstünü hazırlamaq qərarına gəldiniz?**

- Şəhidin ifasından təsirləndim. Xudayar hər kəs kimi məni də ovsunlamışdı. Onu bu kompozisiyada göstərmək istədim və alındı. Onun büstünü hazırlamaq çox xoş bir hissdir. Həm də düşünürəm ki, bu, mənim borcum idi.

**- Büstü hazırlayarkən nələri düşünürdünüz?**

- Sadəcə Xudayarın üzündəki təbəssümü...

**- Büstü 3-4 saata hazırladığınızı qeyd etmisiniz. Belə çətin işi necə az müddətdə başa çatdırdınız?**

- İçimdən gəldi və başladım. İş çox rahat gedirdi və mən istədiyim nöqtədə dayandım. Amma davam da edə bilərəm. Çünki iş gil üzərindədir, hələ ki, üzərində işləmək mümkündür.

**- Görünür, Xudayarın şəhadəti sizə çox pis təsir edib. Başqa şəhidlərimiz üçün də büst hazırlamısız, yoxsa bu, ilkdir?**

- Xudayar Yusifzadədən əvvəl Dövlətzadə Cəbrayılın büstünü hazırlamışdım. Və Xudayardan sonra da bacardığım qədər şəhidlərimizin büstlərini hazırlamağa davam edəcəyəm...

**Ağarza Elçinoğlu**